# ƏSRİN İMAMI, YAXUD AY İŞIĞINDA MƏKTUB

## (dini-tarixi araşdırma)



*Rövşən NOVRUZOĞLU*

*(Əvvəli ötən saylarımızda)*

Onun adını da dəyişəcəklər... Onu göndərmişdilər ki, İmam Həsən Əsgərini öldürsün. Amma Allah onun qəlbindəki dumanı qovdu... Mənim Hökümə xanım adlı bacım var. Ömür-gün yoldaşım Səvsen xanımın gözləri tutulub, görmür. O, Azərbaycanda dəfn olunacaq. Qəbri həmişə nurlu, şəfaətli olacaq...

Bacım Hökümə oğlum İmam Həsən Əsgəriyə analıq edəcək. O, mənim üçün bacılar şahıdır. Amma qərib olacaq. Qərib bir yerdə də rəhmətə gedəcək. O da Azərbaycanda. İslamda yeddinci imam olan İmam Rzanın bacısı Rəhimə xanım kimi Azərbaycanda vəfat edəcək. Peyğəmbər yuxularımda ona (s.ə.) "nəslimizin nuru, nəslimizin işığı" deyirdi.

II Adrianın qaşları çatıldı. Sifətinin qırışları çoxalmış, gözləri çuxura düşmüşdü.

- Sizin vəfatınız məni indidən kədərləndirir - Adrian dedi. Sizi kim zəhərləyəcək, Ya İmam?.. Göstərin, süvarilərim onun canını alsın.

- Məni öz nökərim zəhərləyəcək, Adrian... - İmam köksünü ötürdü. Allahdan başqa bunun qabağını heç kəs ala bilməz. Mənim böyüklüyüm o zəhəri içməyim olacaq. Çörək verdiyim adam Mövlud ibn Yasərin adamları ilə birləşib məni öldürəcək.

- Allah o ölümdən mənimçün də yazıb, ya İmam - Adrian pıçıldadı.

- Yazıb, bəli...

Bir az aralıda at kişnədi. Arıq, boyu uzun, saqqallı bir nökər tövlədən çıxıb, atın cilovundan yapışdı.

- Bax, budur nökərim Ələs - İmam atın cilovundan bərk-bərk yapışdı, üzü çopur kişini Adriana nişan verdi. O, bu məsələni hələlik bilmir. Amma məni bu Ələs öldürəcək. Mənə zəhəri içirən Ələs olacaq.

- Mən onu ikiyə bölərəm, ya İmam-Adrian dedi. İzn verin-dikəlmək istədi. İmam qoymadı.

- Bu bizlik deyil, Adrian həzrətləri - İmam imkan vermədi... Məgər Roma Papasını öldürmək istəyən azdır? - əlavə elədi. - Mən Sizdən ayrılandan sonra İslam Peyğəmbərinin Azərbaycana etdiyi ticari səfər zaman keçib, getdiyi yolla Şamaxıya... qayıdacam. Amma orda bir gecəlik qılacam. Allahın rəsulunun ərəblərlə bir yerdə Şamaxıya ticarətə gəlməsi haqqında... Vatikan arxivinə qoyulmuş xüsusi məktub var. Xəritə də var. Çox qədim bir xəritədir - qoynundan bir neçə dəfə bükülmüş xəritə çıxartdı. Açıb, İmamın qarşısına qoydu. Peyğəmbər özü öz əli ilə çəkib - dedi. Bu xəritəni İslam Peyğəmbəri özü çəkib pıçıldadı...

Həmin xəritədə yer adları var. Peyğəmbər həmin yerdə dayanıb, namaz qılıb. O, yer "Ulduzlar altında" adlanır. Həmin məktubu da, xəritəni də Şirvan şeyxləri imzalayıb, möhürləyiblər. O vaxt Məhəmməd Allahın rəsulu deyildi... Cavan bir tacir idi... Mən onun keçdiyi və yatdığı yerdə namaz qılıb, onun ruhuna salavat deyəcəm. Şamaxı camaatı gərək həmin yeri müqəddəs bir yer kimi qoruyub, saxlayalar... Amma heç kəs o yeri bilmir.

- Adrian həzrətləri, mən heç səndən soruşmuram ki, sən nə üçün bu yerlərə ayaq basdın. - İmam baxdı Adriana.

- Siz hər şeyi bilirsiz, ya İmam. Məni ın hökmü ilə Cəbrayıl əleyhissəlam yola salıb ki, Siz vəfat etdikdən sonra, vida namazını mən qılım. Onun üçün gəlmişəm. Namaz qılanda sağımda İmam Həsən, solumda İmam Hüseyn olacaq. Arxamda İmam Həsən Əsgəri dayanacaq... Məndən qabaqda isə İmam Həsən Əsgərinin oğlu, İmam Mehdi dayanacaq. Höküme xanımın qucağında...

...Sübh namazınadək söhbət etdilər. Dünyanı başına götürən haqsızlıq və ədalətsizlik işlərdən danışdılar. Sübhədək mis samovar şaqqıldayıb, qaynadı, daşıb, töküldü. ...Üç gün sonra İmamın nökəri Vadi ibn Ələs xəlifə Mövlud ibn Yəssarın təkidilə İmam Əliyyən Nəgini öz evində zəhərləyib, məhv etdi. Amma II Adrian and içmişdi ki, İmamı qorusun, ona uzanan zəhərli əlləri kəssin. Mümkün olmadı. Ona görə ki, onun həlak olması Allahdan idi... İmam zəhəri içində Adrian yuxuda idi...

Ertəsi gün Samirra şəhəri sanki alova büründü. Adamlar dəstə-dəstə xəlifə Mövlud ibn Yəssarın sarayı önündə çaxnaşma saldılar... dükan, bazara od vurdular. Vadi ibn Ələsin tutub boynuna kəndir keçirdilər. İmamın tərəfdarları onun üzünə tüpürür, əllərində daş parçalarını ona tərəf sıxırdılar. Fərat və Dəclə camaatı İmamın nökəri Vadi ibn Ələsi sonra xurma ağacından asdılar, ayaqları altında qurumuş xurma yarpaqlarından tonqal qaladılar... Səhəri Vadi ibn Ələsdən cəmisi bir ovuc kül qaldı və o da heç ələ gələsi olmadı.

Sammirraya üç gecə "Allahu-Əkbər" kəlmələrilə sanki laylay çalındı. Sonra bu "Allahu Əkbər" çağırışı çoxda böyük olmayan şəhərdə selə döndü, daşdanıb, məcrasından çıxdı, Fərat və Dəclə çaylarına töküldü... bütün Bağdad elini başına götürdü. Sammirra şeyxi Cəfər ibn Salman "Zəhər və şərbət" kitabında qeyd edir: "...Nədən müsəlman imamları zəhərdən vəfat edir? Zəhəri verən, onu gətirən, onu şərbətə qarışdıran, üzüm giləlinə sıxan almaya... sürtən və məzlum imamların qabağına qoyan kimdir?.. Nə üçün bunun fərqinə varmırsız, ey müsəlmanlar?.. Növbə kimindir, İmamətə çatan, İmam Həsən Əsgərinin? Öz başçısını, öz qardaşını, öz imamını zəhərləyən millətə döndük. Ay Allah, bu, nə bəladır verdin biz müsəlmanlara? Vay sizin düşmənlərin halına... Allah pis əməllərə görə bağışlanmaz və tövbəyə gəlməz bir bəla verəcək..."

...Xəlifə Mövlud ibn Yəssar hökmdar sarayında itirmiş ağlını axtarırdı. O, artıq dəli olmuşdu. Arvadı Hüsniyyə Camalbanu hakimiyyətə sahib çıxmışdı. İmam Əliyyən-Nəginin zəhərlənməsi, sıradan çıxarılması onun istəyini bir az artırdı. O, saraydaxili bir hökm verdi ki, vəfat edən İmamın tərəfdarlarının siyahısını, adlarını istədi. Amma tez də fikrindən yayındı. Çünki İmam üçün saraya zəhər gətirən saray bələdçilərinin başçısı Mişov Qəhhar hökmdar xanımı başa saldı ki, elə hökm verməyi bir tərəfə qoysun. Çünki vəfat edən İmamın tərəfdarlarının sayı bilinmirdi...

Saray bələdçilərinin başçısı Mişov Qəhhar hökmdar xanımı Hüsniyyə Camalbanu üçün zəhəri "Allahın bərəkət yolu"nun ("İpək yolu"nun) üstündə dayanan Şamaxı ticarət mərkəzindən Arsen adlı bir erməndən almışdı. Xüsusən ərəb tacirlərinə ən güclü zəhəri erməni Arsen satırdı.

- Xanım nə üçün fikirdədir? - Mişov Qəhhar soruşdu.

- Hökmdarın da dərmanı erməni Arsendə ola bilərmi? - Hüsniyyə Camalbanu xəbər aldı.

- O, ancaq zəhər satır, xanım. - Mişov Qəhhar dedi. Özü də baha, çox baha satır. Qramı beş dənə iyirmiəbeşlik qızılda dayanır.

- Mən, hökmdar xanım - dedi, hökmdar üçün dərman axtarıram, Qəhhar - hiddətləndi.

- Siz nə məsləhət görürsüz, xanım? - Mişov Qəhhar soruşdu.

- Hökmdarın bu şəkildə qalması, sarayın, hakimiyyətin dağılması deməkdir, Qəhhar-xanım sısini yavaşıtdı, diqqətlə onu süzdü, parıltılı, adamı ovsunlayan gözlərini onun gözlərindən çəkmədi. Ovcunda sıxdığı qızıl kisəsini Mişov Qəhhara tərəf etdi. Götür-əlavə elədi, hökmdarı sabah axşamadək sağalt - dedi. Sonra pillələri qalxıb, gözdən itdi. Sonuncu pillədə bir daha geri qanrılıb iri gözlərini Mişov Qəhhara tuşladı. Az olsa - dedi, başqa bir şey də verəcəm sənə... - əlavə elədi. Sarayın təhlükəsizlik məsələlərinə baxan Mişov Qəhhar hiss etdi ki, kimsə bütün baş verənləri gördü. Çox .baxdı, sarayın bütün girinti və çıxıntılarına göz qoydu, heç kəsi görmədi. Amma gördü ki, hökmdar Mövlud ibn Yəssari xərəkdə gətirib, hökmdar taxtının yanında yerə qoydular.

- Sən kimsən? - üzünü Mişov Qəhhara tutdu.

- Mən Sizin nökərinizəm, hökmdar - Mişov Qəhhar özünü itirmədi. Mişov Qəhharam - dedi.

- Tanımadım. Amma sarayımdasan, demək adamsan - dedi və bərkdən şaqqanaq çəkib, güldü. Adın nə oldu?

- Mişov Qəhhar... Sarayın təhlükəsiz məsələlərinin rəisi.

- Bildim, hökmdar, - dedi. Əldən düşmüş vücudunu yırğaladı. Bura bax, bəs sən bu saraydakıları niyə tutmursan? Sən də satılmısan? Niyə onları zindana göndərmirsən - ağzı köpükləndi. Hamını tut-qışqırdı. Özünü də tut-dedi. Siz cinayət işlətmisiz. Dünyanın imamını öldürmüsüz - əlavə elədi.

- Biz kimik ki, Hökmdar - Mişov Qəhhar dedi. İmama əl qaldırmaq olarmı?

- Olmaz - Mövlud ibn Yəssar qışqırdı. Evini xaraba qoydum, Allah da mənimkini xaraba qoydu - əlavə elədi. Və başladı uşaq kimi ağlamağa. Məni bu zəncirlərdən xilas et, Mişov Qəhhar. Sənə nə istəsən verəcəm.

Müsəlman dünyası matəm içərisində idi. Samirra şəhəri əyninə getdiyi qara libasları hələ soyunmamışdı. Camaat İmam Həsən Əsgərinin imaməti qəbul etmək üçün, şəhərə axışaraq, ona biət edirdilər. Bir dəstə şeyx isə saraya tərəf üz tutmuşdu. Onlar hökmdar Mövlud ibn Yəssardan tələb edirdilər ki, İmam Əliyyən-Nəgini zəhərləyən adamı saraydan çıxarıb onlara təslim etsinlər.

Hökmdar arvadı Hüsniyyə Camalbanu hamamdan çıxar-çıxmaz Mişov Qəhharı yanına çağıtdırdı. O, da tələsdi. Tələsdi ki, görsün sarayı ovcunun içinə alan hökmdar xanımın fikri nədi.

- Qalx yuxarı! - xanım pəncərənin önündən çəkildi. Mişov Qəhhar bir göz qırpımında xanımın qabağında dayandı. Xanım həm qaş-qabaqlı idi, həm də sifəti rəngdən-rəngə düşürdü. Sən tələs-dedi. Hökmdarın ağlı tamam qaçıb. İşini gör. Deyərik ki, İmamın ölümünə ürəyi tab gətirmədi, vəssəlam. Mişov Qəhhar dinmədi. Bir müddət susub, dayandı. O, yoxsa - xanım davam elədi, - ağzımı Allah yolund qoyar. Bu bizim saraya lazımdır? - diqqətlə Mişov Qəhharı süzdü.

- Oldu, xanım. - Mişov Qəhhar dedi. Siz çox uzaqgörənsiz.

- Hakimiyyəti saxlamaq, qorumaq üçün... bütün bunlar lazımdır - xanım Hüsniyyə Camalbanu dərindən nəfəs aldı. Yoxsa, hamı üstümüzə qalxar - əlavə elədi. Sən - hökmdar. Xanımı dedi, bizim xilafətin... şəxsən mənim "Düşünən beynim, eşidən qulağımsan..." - dedi. Sinəsi həyəcandan bir neçə dəfə qalxıb, endi. Yanaqları allandı. Yaşmağının ucunu dişləri arasında sıxıb, işıq saçan gözlərini Mişov Qəhhardan çəkmədi.

- Siz əmr edin, xanım - Mişov Qəhhar pıçıldadı. Hökmdarın ağlı tamam itib - əlavə elədi. İcazənizlə qəbrqazan Salis ibn Faruxu yanıma çağırım.

- Çağır - hökmdar xanımı dedi və bir göz qırpımında gözdən çəkilib getdi.

Mişov Qəhhar isə hökmdar Mövlud ibn Yəssarın otağının qapısını kəsdirmişdi. Sübh namazınadək hökmdarın qapısı ağzında var-gəl etdi. Əyninə getdiyi zərif gümüşü paltar onu yaraşıqlı göstərirdi. Yaxalığına bir cüt qızıl düymə tikilmişdi və bu qızıl düymələri də hökmdar Mövlud ibn Yəssar bağışlamışdı. O, bugünədək hökmdara sədaqətli olmuşdu. Həqiqətdə Mişov Qəhhar saraya girmək istəyən bəlaları qapıdan qovurdu. O çox güclü və tədbirli cangüdən idi. Hökmdarın dəliiik məqamları onu çaşdırmışdı... Mişov Qəhhar islam dünyasının imamlarını heç cür qəbul etmirdi. Bu baxımdan da o, İmam Əliyyən-Nəgini asanlıqla zəhərlədi. İmama zorla zəhər içirən Mişov Qəhharın içində bir hakimiyyətlik, hökmdarlıq iddiası var idi. Bunu isə özündən başa, heç kəs bilmirdi...

Sübh namazına qalmış Mişov Qəhhar dəstəmaz aldı. Səhərin ala-toranlığında o, hökmdar Mövlud ibn Yəssarın qapısını döymək istədi. Amma döymədi. Hökmdar ehmalca qapını açdı, Mişov Qəhhar çaşıb, qaldı. Amma özünü itirmədi, sakit və təmkinlə onun qarşısında təzim etdi.

- Sabahınız xeyir olsun, hökmdarım - dedi.

Hökmdar Mövlud ibn Yəssar isə dinmədi və əvəzində şaqqanaq çəkib, güldü. Sən, - dedi, nə qədər məni çox istəyirmişsən, Mişov... Bu mənim borcumdur, hökmdarım. Atam atana, mən isə Sizə itaətdəyəm - Mişov Qəhhar pıçıldadı. Biz biəti pozmarıq. Ölənədək, sizinləyik - əlavə elədi.

- Ölən kimdir. Mişov? - hökmdar xəbər aldı. Demək, mən ölürəm, hə? - sual verdi. Gəlmişəm ki, sübh namazında məni öldürəsən?.. Mən gördüm, sən İmam Əliyyən-Nəgini necə zəhərlədin... İndi arvadım, Hüsniyyə xanımla qoşalaşıb, məni öldürmək istəyirsən? Məndən də sonra, hökmdar xanıma zəhər içirmək istəyirsən... Məni öldürmə Mişov qardaşım, öldürmə - Mişov Qəhharın ayaqlarına döşəndi. Əyilib onun ayaqlarını qucaqladı... ağlaya-ağlaya yalvardı: - Səni and verirəm Allaha, məni öldürmə Mişov. Mən yaşamaq istəyirəm. Mişov Qəhhar. Ölmək istəmirəm...

Mişov Qəhhar ağlına sığışdıra bilmirdi ki, İmam Əliyyən-Nəginin zəhərlənməsini hökmdar görsün və yaxud bilsin.

- Hökmdarım - dedi. İmamın qatili mən deyiləm.

- Bilirəm, bilirəm - hökmdar qarğıdan düzəltdiyi Qarğı Atını qıçlarının arasına alıb, otaqboyu sürməyə başladı. Söz verdin a, məni öldürməyəcəksən... Canım sənə qurban olsun Mişov, öldürmə məni. Mən imam deyiləm... - yenidən yalvarmağa başladı. Mən - Mişov Qəhhar dedi.

- Sizi heç vaxt öldürmərəm, hökmdar, heç vaxt. Amma İmam Həsən Əsgəri Sizə bir şəfa dərmanı göndərib. Onu içib, rahat yatarsız... Tamam-kamal sağalarsız.

- Allah ondan razı olsun - Hökmdar dedi. O, bilir ki, atasına sən zəhər içirtdin?

Bu sual Mişov Qəhhari çaşdırdı. Ovcunda sıxdığı balaca şüşəni şərbət dolu mis cama tökdü və hökmdara tərəf uzatdı. Onda Azan verilirdi. Sübh namazının azanı altında hökmdar Mövlud ibn Yəssar mis camı başına çəkdi...

- İndi isə uzanıb, dincələk - Mişov Qəhhar hökmdarı yatağına uzatdı. Və bütün bunlardan sonra gördü ki, hökmdar yorğanı başına çəkib, ağladı. O, ağlaya-ağlaya pıçıldayırdı: - Allahım, mənə nə pis iş gördüm ki, məni öldürdülər. Mən yaşamaq istəyirəm, ölmək istəmirəm. Amma Mişov mənə zəhər verdi, bildim. O məni sübh azanında zəhərləmək üçün gəlmişdi - dedi. O məni sübh azanında zəhərləmək üçün gəlmişdi. Bir az ötmüş səsi batdı... O, daha nəfəs almırdı.

...Mişov Qəhharın sir-sifəti elə bil təndirdən çıxmışdı. Bir tərəfi yanıb qaralmışdı, bir tərəfi də göm-göy göyərirdi. Sanki döymüşdülər. Hökmdarın otağından çıxıb, ətrafa nəzər saldı. Sarayda sakitlik idi.

*(Davamı 14-cü səhifədə)*

# ƏSRİN İMAMI, YAXUD AY İŞIĞINDA MƏKTUB

## (dini-tarixi araşdırma)

(Əvvəli 12-ci səhifədə)

- İndi gedib, rahat yata bilərsən - hökmdar xanımının səsini eşitdi. Yat, yuxunu al-hökmdar xanımı dedi. Allah köməyin olsun. İrəlidə işimiz çoxdur - əlavə elədi.

Mişov Qəhhar qanrılıb zəhərlənmiş hökmdar Mövlud ibn Yəssara baxdı. O, əbədi bir yuxuda dincəlirdi... Hər iki ovçu sıxılmışdı. Sifəti yavaş-yavaş göyərib, şişirdi.

...Sübh tezdən Samirra hökmdarı Mövlud ibn Yəssarın ölüm xəbəri həm İraqda və həm də Şamda yayıldı. Allahın hökmü ilə Samirraya yağış yağdı. Şəhərin, Fərat və Dəclənin üstündə ardı-arası kəsilmədən göy guruldadı. Hava getdikcə qaralırdı və baxmayaraq ki, günün batmağına xeyli vardı. Hamı İmamətə yenicə çatan İmam Həsən Əsgərinin həsrətində idi. Saraya doğru az adam gedirdi. Əslində Vatikandan bu yerlərə qonaq kimi gələn Adrian da baş verən olaylara tamaşa edirdi...

Yol qeydlərinidə Əs-Ssəat yazır: "Sarayda hamı düşünür, götür-qoy edirdi. Hökmdarın ölməsi... İmam Əliyyən-Nəğinin zəhərlənməsi hamını çaşdırmışdı. Sadəcə İmam Həsən Əsgəri nur süzülən sifətini saraya tuşlayıb, əlini qaldırdı və dedi: "Mən Sizləri Allaha tapşırdım".

Bu böyük bir səs-küy yaratdı. Hamı bildi ki, İmam Mişov Qəhharı və hökmdar xanımı xanım Hüsniyyə Camalbanunu... lənətlədi. Adrian pıçıldadı: "...Bu çağırışdan sonra, indi yaşa görüm, necə yaşayırsan... ay müsəlman. Lənətə gələsiz sizi..." Bu yerlərə gəldiyim gündən nələr görmədim?.. Artıq hamıya bəlli oldu ki, Sammiranın hökmdarı Mövlud ibn Yəssarı necə zəhərləyib, öldürdülər. Eyni zəhərlə İmam Əliyyən-Nəğini zəhərlədilər. Onda mənə elə gəlirdi ki, dörd bir yanım od tutub, yanır. Göydən düşən ildırım parçası Samirra şəhərini elə dörd bir yandan da qoynuna alıb yandırırdı, qovururdu... Biz artıq hazırlaşırdıq ki, qayıdaq. Adrian həzrətləri hazırlıq görürdü. Mən qalmaq istəsəm də, mümkün olmadı. Çünki Allah bu qalmağa razılıq vermədi. Bunu İmam Həsən Əsgəri dedi. Onu da dedi ki, mən Vatikana qayıdandan sonra böyük bir hikmət sahibi olacam... Dünyanı bürüyə biləcək qalmaqalların, qanlı döyüşlərin qabağını alacaqsan. Bütün bunlar Allahın hökmü ilə olacaq... Mən deyilənləri qəbul etdim. İki gündən sonra müsəlman dünyasında ən ağır və ciddi aylardan sayılan Məhərrəm ayı başlanırdı. Küçə və meydanlardan, İmam Hüseynin qara bayraqları asılırdı.

Adamların çal-çağırlı günlərinin, toy şənliklərinin arası kəsilmişdi. Məhərrəm ayının başlamasından iki gün sonra Həzrəti Adrian Vatikana döndü..."

...İmam Əliyyən Nəğinin (s.ə.) şəhidliyindən sonra islam dünyasında parçalanmalar daha da şiddətləndi. İlk yalançı Peyğəmbər meydana gəldi. Və bu yalançı Peyğəmbərin adı da Səltənət idi. Həm də bu peyğəmbər qadın idi. Səltənət Qırmızı Dənizin Şərq sahillərinədək gedib çıxan Səudiyyə dağının ətəyindəki çox qədim Şeyx Sabah qəbiləsində doğulmuşdu. Səltənət az müddət ərzində özünə xeyli tərəfdar yığdı. Yalançı Peyğəmbər iddia edirdi ki, islamın sonuncu Peyğəmbəri Həzrəti Məhəmməd Qurani-Kərimdə qadınlaıra qarşı amansız olub. Quranda ayələrin bir qismi dəyişdirilməlidir. Yalançı Peyğəmbərin bu iddiaları Əli (s.ə.) tərəfdarlarını da çaşdırmışdı...

Samirrda vəba yayılanda, epidemiya tüğyan edəndə Yalançı Peyğəmbər Səltənət şəhərin hökmdarı xanım Hüsniyə Camalın dəvətini aldı. Onda Yalançı Peyğəmbər Səltənət Məkkədən Mədinəyə, oradan da Bağdada gəlməkdə idi. O, Bağdadda çox qalmadı. Çünki Samirrada onu gözləyirdilər. Hətta pişvazına çıxmışdılar.

Samirra başdan-başa bəzənmişdi. İmam Əliyyən-Nəğinin tərəfdarlarından başqa Fərat və Dəclə qəbilələrinin başçıları Yalançı Peyğəmbərin-Səltənətin qabağına yüyürürdü. O, Peyğəmbər (ə.s.)-in dəvəsi kimi bir dəvədə, əlində zeytun ağacından yonulma bir çəliklə Samirraya qədəm qoydu. Amma Ağ Dəvə şəhərin girəcəyində, hündür naxışlı, üstündə qızıldan tökmə zolaqları olan taybatay açılmış qapıların yanında dizlərini büküb, yerə xıxdı. Əllərində qavallar tutan və tez-tez onu döyəcləyən, səs-səsə verib oxuyan ərəblər dəvəni dövrəyə aldılar. İllah çalışdılar ki, dəvə dikəlsin, ayağa qalxsın... mümkün olmadı. Dəvənin iri, qara gözləri balacalaşdı. Yalançı Peyğəmbər Səltənət yerə xıxmış dəvədən düşüb, qəzəblə dəvəyə baxdı. Dəvə isə sanki dincəlmişdi. O, bilirdi ki, çiynində dağ boyda bir yük, Səltənət adlı bir günah enmişdi.

Yalançı Peyğəmbər Səltənət dəvədən düşən kimi, ağ Dəvə dikəldi və heç kəsin gözləmədiyi bir halda geri qanrılıb, qaçmağa başladı. Onda hamının başı çalınan qavallar altında Samirraya qədəm qoyan Yalançı Peyğəmbərə və hökmdar Hüsniyyə Camalbanuya qarışmışdı.

İmam Həsən Əsgərinin (s.ə.) tərəfdarları isə İmamın qapısına keçilməz bir sədd çəkmişdilər. Heç kəsdə qüdrət və güc olmazdı ki, o səddi yarıb, imamın evinə keçsin. Gün əyiləndə axşam namazı azanında İmam Həsən Əsgəriyə (s.ə.) dedilər ki, Ya İmam, qapıya Ağ bir Dəvə gəlib. Ayaqlarını yerə döyəcləyə-döyəcləyə qalıb. İmam Həsən Əsgəri (s.ə.) axşam namazından sonra, qapıya çıxdı. Adamlardan çəkilmiş səddin lap yanında Ağ bir Dəvə dayanmışdı və o dəvə İmamı görən kimi özünü qabağa atdı. Bu ara imam onun gözlərində kədər və yaş gördü. İmam Səddi yarıb, Ağ Dəvənin boynunu qucaqladı... Səddi keçib, həyətə saldı.

Samirrada isə, şəhərin tən ortasında qırmızı kərpicdən tikilmiş qədim məsciddə Yalançı Peyğəmbər Səltənət minbərə qalxıb, iddia edirdi ki, dünyanı ancaq və ancaq Allah tərəfindən göndərilən qadın peyğəmbərlər düzəldəcək.

Yerli adamlar Yalançı Peyğəmbər Səltənətin odlu-odlu danışmağına həvəs və maraqla qulaq asır, ona Allah Möcüzəsi kimi baxırdılar.

Birdən Samirra məscidini bir kölgə əyildi. Yalançı Peyğəmbər Səltənət səsini uddu. Dikəlib, minbərdən düşdü. "Mən gəlirəm" - dedi. Və məsciddən çıxıb, ətrafa nəzər saldı. Atın üstündə II Adrianı gördü...

Yol qeydlərini yazan Əs-Səlat davam edir: "Yalançı Peyğəmbər Səltənət islam dünyasına Vatikandan səpələnmiş Yalançı Peyğəmbərlərdən biri idi. Onun işi islam peyğəmbərinin dediklərini təkzib etmək, Qurani-Kərimə düzəliş etmək idi. O, minbərdə Quran ayələrini özü istədiyi kimi təhrif edir, islahat tələb edirdi..."

Adrian başını qaldırıb, qəzəbdən qan tutmuş gözlərini Yalançı Peyğəmbər Səltənətə zillədi. Sən-dedi, Samirranı tərk elə.

- Bəs, Yalançı Peyğəmbər Səltənət dedi - mən tək deyiləm Həzrəti Adrian. Bizi ərəb dünyasına Vatikandan yola salanda dedilər ki, başqa şey demişdilər hamımıza xeyir-duanı siz vermisiniz. İndi necə olsun. Hərə bir diyara getdi. Mənim də payıma Samirra düşdü. Mən - Yalançı Peyğəmbər Səltənət dedi - İmam Həsən Əsgərini və onun övladını - imam Mehdini öldürməliyəm. Onlar Vatikanın düşmənidirlər, bunu ki, bilirsiz...

- Sən - Adrian dedi, yığış, arxamızca gəl. - atını Dəclə çayının sahilinədək sürdü. Yalançı Peyğəmbər Səltənət isə bu dəfə dəvəyə deyil, boz bir ulağa mindi. Hər ikisini Adrianın üç süvarisi dövrələmişdi. Bir az aralıda isə İmam Həsən Əsgərinin tərəfdarları idi. Çayın kənarındakı xurma bağlarında gözdən itdilər. Adrian isə çox getmədi. Atın üstündə dayanıb, Yalançı Peyğəmbər Səltənəti gözlədi. Boz ulaq çayın üstündəki sınıq körpüdə dayandı. Bu çayın adı Tərtər idi və o Samirranın Qərbindəki Tərtər gölündən ayrılırdı... Sonra özünə yol açıb, Dəclə çayına tökülürdü... Boz ulaq körpünün üstündə toxtadı. Yalançı Peyğəmbər Səltənət gözlərini sudan çəkib, soruşdu:

- Adrian həzrətləri, mənim haqqımı kim verəcək? Həzrəti Adrian əlini qılıncına apardı. Atını onun yanına sürdü. Qılıncını sıyırıb, havaya qaldırdı. "Ya Hüseyn" - deyib, Yalançı Peyğəmbər Səltənətin başını üzdü. Ulaq başı üzülmüş Yalançı Peyğəmbər Səltənətin qana bələnmiş, hələ canı çıxmayan bədənilə çaya düşdü...

Yol qeydlərini yazan Əs Səlat qeyd edir: "...Bu böyük bir möcüzə idi. Həzrəti Adrian qılıncını havaya qaldırmaqla qarşısındakı adamı iki böldü. Aman, bu nə idi, bilmədim. Amma Adrian Həzrətləri qılıncını havaya qaldıranda "Ya Hüseyn" qışqırdı... Ertəsi gün Məhərrəm ayı idi. Samirra Kərbəla şəhidlərini yad edəcəkdi. Həzrəti Adrian deyirdi ki, bu günlər hüznlü, müsibətli günlər idi... Bir az ötmüş Həzrəti Adrianı İmam Həsən Əsgərinin adamlarını dövrəyə aldılar... Sonra İmam Həsən Əsgəri (s.ə.) göründü. Əyninə yaşıl paltar geymiş bu müqəddəs şəxs elə bil göydən endi... insan nə qədər gözəl olarmış. Mən onu təsvir edə bilmədim... Adrian Həzrətləri atdan endi..."

- Adrian Həzrətləri, sən nə etdin? - İmam soruşdu.

- Onu mənə Allah dedi, ya İmam. - Adrian dedi. Mən öz borcumu ödədim.

- İmam Hüseyn köməyin olsun, Adrian. - İmam ona dua etdi. Və onu bir dəstə tərəfdarı ilə yola saldı.

- Mənim üçün etdiyinizi halal edin, ya İmam. - Adrian dedi. Vatikanda məndən xeyli sonra bir başçı da İslamı qəbul edən birisi olacaq... Mən dostumuz Əs-Səlatı burda buraxıram. Allah imkan etsə, Məhərrəm ayının onuncu günü Siz onu Azərbaycana yola salarsız. Onun Azərbaycanda görəcəyi işlər var. Allah xatirinə İmam Hüseyn xatirinə Siz İmam Həsən Əsgəriyə (s.ə.) və dünyaya gələcək Zamanın imamına dualar edirəm. Sahibı-Zamanın ayaqlarından və əllərindən öpərsiz ya İman... Mən onu dünən yuxuda gördüm. İmam Hüseynlə qoşa gördüm. Onlar məni Fərat və Dəclə çaylarına qədər ötürdülər... - Adrian ağladı. Salamat qalın-səsi elə bil quyudan gəlirdi...

- Allah sənin köməyin olsun, Adrian Həzrətləri.

Gəlişin də məlum idi, gedişində. Sən Sammirada həqiqəti, ədaləti, ləyaqəti bərpa edən, dağılmış müsəlmanları bir yerə yığmaqda İmam Əliyyən Nəğiyə (s.ə.) yardımçı oldun. Ailəmizi zəhərdən saxladın. Allah yardımçın olsun - İmam Həsən Əsgəri (s.ə.) dedi. Əs-Səlatdan isə tamam arxayın ol, nigaran qalma. Dediyin kimi olacaq... O, artıq bizim ailənin üzvü kimi qalacaq. Sonra mən onu Azərbaycana ötürəcəm. Ordan da Vatikana qayıdacaq. Çünki Allah onun yolunu Vatikanda bənd edib.

- Mənə hökm gəldi ki, burdan Məkkəyə gedim. Allahın müqəddəs ocağını ziyarət edim... Əvvəlcə Kərbəlada olacam. İmam Hüseynin və Əbül Fəzl Abbasın məzarlarını ziyarət edəcəm... Məşhədi yuxuda ziyarət etdim. İmam Rza (s.ə.) mənə dua etdi... Mən həm də Vatikana tələsməliyəm, ya İmam... Kürəyimdə İmam Rzanın barmaq izləri var.

Adrian yenidən atın cilovundan yapışıb, ayaqlarını üzəngiyə qoydu. "Ya Əli" - deyib ata qalxdı. Məkkəyi - Mükərrəmə gedirəm - əlavə elədi, - xəbərim var. Məkkə kralları gələcəkdə elə bir səhv iş görəcəklər ki, Allah öz evini oradan köçürmək məcburiyyətində qalacaq. Ya İmam, Allahın qəzəb hömkləri var. Onu qəzəbləndirmək olmaz. Ciddə kralları isə onu qərq etdikləri əməllərlə görə onu qəzəbləndiriblər. Adrian üzünü qəmgin dayanan, sübhədək dua edib ağlayan Əs-Səlata tutdu - Sən, - dedi, Azərbaycana gedəndə yolunu Şamaxıdan da sal. Sənə tapşırdım. Orda Pəyğəmbərin ayaq izləri var. Gənc olarkən ərəb tacirlərinə qoşulub, Şamaxıya ticarət üçün gələrdi. Sənə xəritə verdim. Orda qeydlər var. Sonra Gəncəyə-İmamzadəyə baş çəkərsən. Oraları ziyarət edərsən. Gəncə Şeyxini hökmən görərsən. Sənə dediklərimi ona deyərsən. Özümü və sizləri Böyük Allaha tapşırıram... Əmanət qoyduğum üç məktubu isə məndən sonra açarsız. Xudahafiz...

Adrian Həzrətlərinin atı şahə qalxdı. Sanki göy guruldayırdı. Dəclə çayının üstündəki körpüdə dayanıb, bir müddət Samirra şəhərinə baxdı.

Samirra hökmdarı Mövlud ibn Yəssarın dəfnindən sonra əsgərlər arasında hakimiyyət ələ alan Hüsniyyə Camalbanuya qarşı etiqadsızlıq ara vermədi.

Əsgərlər və sərkərdələr öz hökmədarlarının ölüm səbəblərini öyrənməyə cəhd edirdi. Camaat isə İmam Əliyyən Nəğini zəhərləyib şəhid edəni axtarırdı.

Əs-Səlatın yazdıqlarından: "...Samirra şəhəri Həzrəti Adrian göz yaşı ilə yola saldı. Hamının qəlbində Adrian həsrəti qalmışdı. İmam Əliyyən Nəğinin vəfatından sonra, İmam Həsən Əsgərinin qapısı ağzında tərəfdarları növbə çəkirdi. Hamı imam Həsən Əsgərini (s.ə.) itirəcəklərindən qorxurdu. Samirra məhvərindən çıxan, əxlağını və mürvətini itirən şəhər kimi yadda qalırdı. Şəhərin büyün bərəkəti, paklığı və ləyaqəti, ədaləti və insafı sanki İmam Əliyyən Nəğinin (s.ə.) vəfatından sonra qeybə çəkilmişdi. Mövlud ibn Yəssarın hökmdar sarayında Mişov Qəhhar meydan sulayırdı. Hökmdar xanımı Hüsniyyə Camal hakimiyyəti ələ alsa da, sarayda Mişov Qəhhar qorxusu vardı. Əsli-nəcabatı bilinməyən bu adamı saray əhli qəbul etmirdi. Əslində Mövlud İbn Yəssardan sonra saraydakılar Hüsniyyə Camalbanuya da ürək qızdırmırdı. Sarayda ona qarşı bir qrup yaranmaqda idi... Biz II Adrianı yola saldıq. Onun yanında Salihan da var idi. O, başdan-ayağa yaşıl geyinmişdi. Əsl sərkərdə idi elə bil. Rum Padşahı Qeysərin itkin saydığı oğlu Salihanın mindiyi at imam Əliyyən-Nəğinin (s.ə.) atlarından idi. Onu İmam Həsən Əsgəri bağışlamışdı..."

İmam Həsən Əsgəri bu an qucağına sıxdığı ağappaq bürüncəkli bələyi başı üstünə qaldırdı. Bələk elə bil yanırdı, od tutmuşdu. İmam övladı Mehdini (ə.s.) sinəsindən qoparıb, başı üstünə qaldırmışdı. Elə bilirdin ay parçası qopub, İmamın qolları üstündə qərar tutub. II Adrian atdan endi. Qədim körpünün üstündə dizlərini yerə qoydu. Alnını torpağa qoydu. Sonra ehmalca ata qalxdı... Və bir göz qırpımında gözdən itdi. İmam Həsən Əsgərinin ailəsinə gələn Şeytan bəlalarından qorumaq üçün Samirra şəhəri tamam dönmüşdü, adamlar sanki hökmdar qadın Hüsniyyə Camalbanudan üz çevirmişdi. Adamlar dəstə-dəstə İmam Həsən Əsgərinin evinə axışırdı.

Səyyah Əs-Səlat yazır: "...Mən Samirrada qaldım. İmam Həsən Əsgərinin yanında. Ona qulluq etdim. Bu mənim taleyim idi. Bir gün İmam Həsən Əsgəridən soruşdum: - Ya İmam, qiyamət günü qopacaqmı? O isə cavabında dedi:- Mənim sevimli dostum Əs-Səlat Allah qiyamət gününü hökmən göstərəcək. Biz imamlar qiyamət günü ilə insanlığın, ləyaqətin... ədalətin və nəfsin arasında bir vasitəyik... Nə qədər ki, biz imamlar salamat qalmışıq.... Allah bizlərə görə sizə rəhm edir... Amma dünya dəyişəcək. Dünya belə qalmaz, Əs Səlat... Allahın Evi bizim üçün əziz olaraq qalır. O Evi Müqəddəs Məkkəni hamımız ziyarət etdik. Amma Allahın Evi də dəyişəcək, Əs-Səlat!..

O Evi o qədər günaha batıracaqlar ki, Allah imtina edəcək o evdən... yerini-yurdunu dəyişəcək, Evini başqa bir səmtə yönəldəcək. Bütün bunaları mənə övladım. İmam Mehdi deyib, Əs-Səlat...

(Davamı var)